AZERBAIJAN INTERNATIONAL

**Əkbər Behkəlam - Berlində "Uçan İnək"**

Beti Bleyer
Piruz Xanlı

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 3.1 (Spring 1995)
© 2003. Azerbaijan İnternational

## Berlin Şəhərində Yeni Bir Divar Rəsmi "Uçan İnək"

Bəzən elə hallar olur ki, tikintinin hansısa bir hissəsi yaxşı alınmır. Bəs onda heç bir işə yaramayan, göz oxşamayan, əndazəsiz, faydasız və nataraz bu divar, bina yaxud sahəni neyləmək lazımdır? Bir müddət əvvəl bir nəfər Berlinli sərmayəçinin başına da belə bir iş gəlmişdi. O, yenicə tikdirdiyi ticarət mərkəzinin binasının bir hissəsini bəyənməmiş və belə düşünmüşdü ki, bəlkə də, bu məsələnin çarəsi bir rəssamın əlində ola bilər. Onun axtarıb tapdığı rəssam isə 25 ildən bəri Berlin şəhərində yaşayan Təbrizli Əkbər Behkəlam idi.

Əkbər Behkəlam  haqqında söhbət gedən tikinti sahəsini görməyə gedəndə onun təsəvvürünə gələn ilk şey "Buludlar" olmuşdu. O, bulud mövzusu üzərində işləyərək bu tikintinin o bağlı, qaranlıq və ürəksıxan hissəsini açıb, oradan açıqlığa, göyə və ulduzlara yol sala bilərdi amma buna nail olmaq üçün əvvəlcə yoldan keçən  adamların diqqətini cəlb eləməliydi. Yəni təsəvvür etdiyi buludların üstündə gözə çarpan bir simvola ehtiyacı var idi. Bir quşamı? Bəlkə də bir insana? Yaxud da qədim İkarus əfsanəsində olduğu kimi günəşə doğru qanadlanan bir uşağa?

Ticarət mərkəzinin o hissəsində bir süd dükanı var idi. Bəs Behkəlamın axtardığı simvol nə üçün qüdrət və həyatı xarakterizə edən, uçan bir inək olmayaydı? Amma rəssamın bütün əsərlərində olduğu kimi bunda da insandan bir az olmalı idi. Məsələn Yunan əfsanəsinə görə yəhərsiz bir ata minən çılpaq bir qadın. Bu çox uyğun olardı, çünki qadın rəsmini kişi rəsminə nisbətən daha da maraq doğuran bir ifadə ilə çəkmək olar.

## Bir Ton Rəng

Əkbər Behkəlam 1994-cü il yayın əvvəlində xərəçi (ayaqaltı) üstünə çıxıb 1050 kvadrat metrlik bu divar rəsmini çəkməyə hazır idi. Bu iş bir ton ağırlığında rəng aparacaqdı və əlindəki 30 santimetr enində fırça ilə xərəçi (ayaqaltı) üstündə aşağı gedən Behkəlamı 10 kilo arıqladacaqdı. İşin çətinliyi bundan ibarət idi ki, o hər dəfə aşağı enib çəkdiyi hissəyə 200 metrlikdən baxıb rəsmin o parçasının, elecə də bütövlükdə nəyə bənzədiyini

uzaqdan görməyə məcbur idi. Əgər belə böyük divar rəsmini mozaik işinə bənzətsək, onun hər bir hissəsini ayrı bir əsər kimi görmək mümkündür.

Behkəlamın səmanı və buludları canlandıran bu rəsmi, xüsusilə havanın açıq olduğu vaxtlarda, təbiət ilə elə birləşir ki, camaat rəsmin harada qurtarıb həqiqi asimanın harada başladığını seçə bilmir. Bu isə, əsərin nə qədər təbii və ustalıqla rəsm edildiyindən irəli gəlir. Sanki göyə və buludlara divardakı böyük bir aynadan baxırsan.

### Tikinti Fəhlələri Ən Yaxşı Tənqidçilərdir

Emalatxanada çəkilən rəsmləri rəssamın özündən başqa heç kim görmür, amma divar üstündə belə bir əsərə gəldikdə, o, hər bir mərhələdə tənqidçilərin nəzərini cəlb edir. Bu baxımdan bu tikinti sahəsində işləyən bir neçə yüz fəhlənin hamısı əsər haqqında Behkəlama məsləhət vermişdilər. Rəssam buludları çəkəndə işçilərdə maraq doğurmamışdı, məqsədin də nə olduğunu başa düşməmişdilər. Amma uçan inək və üstündəki qadın tabloya əlavə edilən vaxt işçilərin təsəvvürü və xəyal gücü işə düşmüşdü. Onlar soruşurdular: "Bəs bu inəyin elə bir ayağı var?" Behkəlam da zarafat edib deyirdi: "Ayağın birini çəkə bilən rəssam o biri üçünü də çəkməyi bacarar!" Amma onun fikrincə, uçan inəyin bir ayaqdan çoxa ehtiyacı yox idi. Bir də, əgər dörd ayaqlı çəkilsəydi o qədər də maraqlı olmazdı.

Rəssam yaratdığı əsərlərdə şəxsi xarakterlərə çox diqqət yetirmir və onların simasını aydın təsvir eləmir. Bəlkə də elə bu səbəbdən tabloda işlədiyi qadını, əvvəlcə, başsız rəsm eləmişdi. Lakin işçilər buna etiraz etmişdilər və axırda qadının başını çəkməli olmuşdu. Behkəlam Berlin şəhərindəki bu nəhəng əsərini keçən ilin Noyabr ayında başa çatdırmışdır.

Demək lazımdır ki, bu Təbrizli incəsənət ustası 1970-ci illərdən bəri öz fırçasını beş dəfə Berlin şəhərinin divarlarında işlədib. O, Şərqi Berlində yerləşən emalatxanasında işləyir və məşhur Berlin divarının yıxıldığı bu dövrdə bəlkə də rəssamın özünün çəkdiyi bu divar rəsmi onun şöhrətini daha da artıracaq. O, işlədiyi əsərlərin hamısını özünün bir parçası adlandırır və həmin əsərlər yavaş-yavaş muzeylərdə və şəxsi kolleksiyalarda öz yerlərini tapırlar. Çox fərqli bir üslub bu əsərlərin hamısını birləşdirir.

### Nəzərləri Cəlb Etmək

Bir sənətkar o zaman müvəffəqiyyət qazana bilər ki, yaratdığı əsər ilə adamların diqqətini cəlb edib onlar ilə əlaqə yarada bilsin. "Mən Almaniyada yaşayıram və əsərlərimi çox fərqli təfəkkürü olan bir xalqın qarşısında nümayiş etdirirəm. Adam öz ölkəsini tərk eləyəndə onu daha çox düşünür və özündən soruşur: Mən kiməm? Danışdığım bu dil nədir? Keçmişim nə idi? Mən buraya gələndən sonra öz əslimi axtarmağa başlamışam. Başa düşmüşəm ki, hər nə qədər özümü axtarmağa çalışsam da heç bir həqiqi bir Peter, Hans yaxud da Jan ola bilmərəm. Amma özümü tanıya bilsəm əsərlərimi insanlara çatdıra bilərəm."

Əkbər Behkəlamın özünə məxsus üslubundan əlavə digər bir məxsusiliyi onun keçmişi ilə bağlıdır. Ata yurdundakı miniatür ənənəsi onun əsərlərinə böyük təsir göstərir və sadə bir tablo mürəkkəb bir hekayəni nümayiş etdirə bilir. Miniatür janrında üçüncü ölçünün nəzərdə tutulmaması da maraqlıdır. Tablonun səhnəsində uzaqda yerləşən fiqurlar yaxında imiş kimi öz təbii tələb olunandan böyük təsvir edilə bilir. Onların hamısı mühümdür və əsərin mövzusunda rol oynayır.

Behkəlam onun sənətini görən Avropalıları onlara yad olan bu yeni xüsusiyyətlər ilə tanış edir.

Onun üslubu zaman keçdikcə çox fərqli bir yöndə inkişaf edib. Əsərlərində diqqəti cəlb edən hərəkət, dəyişikik, hiddət və təzyiq ünsürləri tamaşaçını məftun edir. O çətin mövzuları işləməkdən qorxmur və fırçanı ələ almazdan o mövzu haqqında araşdırma aparır. Almaniyanın 1848-ci il inqilabını rəsm edərkən Behkəlamın hissiyyatı İranın 1979-cu il inqilabının təsirində imiş. Onun işlədiyi "Persepolis" seriyası da represiyalı müasir həyatın faciələrindən, habelə keçmişin şanlı və dəbdəbəli günlərindən müxtəlif səhnələri yan-yana qoyur. Behkəlam bu yaxınlarda "Allah Adına Ədalət" adlandırdığı bir seriyanı da başa çatdırıb. O, siyasi bir rəssam olduğunu iddia eləmir və yalnız müasir ictimai həyatın bir sıra böyük ədalətsizliklərinin qarşısında ayna kimi durduğunu qeyd edir.

Rəssam Behkəlam ümumiyyətlə bir mövzunu seçib onu dəfələrlə çəkib inkişaf etdirməyə çalışır. Onu 25-30 dəfə çəkir və artıq özünü təkrarlamağa başlayan vaxt yeni bir mövzunun sorağına düşür. "Yeni ideyaların ardınca getmək yaradıcılıq qabiliyyətimi artırır, qabaqca bilmədiyim əlaqələr və münasibətləri kəşf etmək mənim üçün çox maraqlıdır."

Behkəlamın fikrincə, hər bir sənətkar istər bədii, istərsə də mövzu nöqteyi nəzərindən müxtəlif mərhələlərdən keçir. Məsələn, əgər rəngi götürsək, onun əvvəlki əsərlərində qəhvəyi rəngdən xeyli istifadə olunub. Amma zaman keçdikcə boz, mavi-boz və paslı-boz, son vaxtlar isə sarı, qara və qırmızı rənglər onun işlərində daha da çox müşahidə olunur. Ən az gözə çarpan rəng isə yaşıldır. O özü, bunu, ərsəyə gəldiyi Təbriz şəhərinin iqlimi ilə əlaqələndirir. Təbrizin qışı soyuq, yayı isti, ərazisi isə qayalıqdır. Elə buna görə də rəssamın gözləri torpağın və göyün rənginə adət eləmişdi. O etiraf edir ki, Almaniya rəssamları ilə müqayisədə onun işlədiyi rənglər tamamilə fərqlidir.

### Ümumdünya Baxışı

Rəssam Behkəlam indi artıq 25 ildir ki, Almaniyada yaşayır amma hələdə özünü bir xarici kimi hiss edir. "Arxayınam ki, bundan 25 il sonra da eyni hisslə yaşayacam. Alman pasportum var, amma hələ də burada əcnəbi hesab olunuram." Lakin Behkəlam Azərbaycanlı, İranlı yaxud Alman olduğuna bir o qədər diqqət yetirmir: "Mən mənəm. Əsərlərimdə elə şeylərdən söhbət edirəm ki, mənə xüsusi bir perspektiv qazandırır. Bunu dəyişə bilmərəm. Təbiətin mənə verdiyi xasiyyəti dəyişə bilmərəm. Özümü zaman-zaman

bu mühitə uyğunlaşdırmağa çalışmışam. Alman həyat yoldaşım və uşaqlarımla aramızdakı düşüncə fərqlərini azaltmağa səy göstərmişəm. Amma əslində həqiqi mə'nada dəyişməmişəm."

Rəssamın Azərbaycanlı olması onun sənətində mühüm rol oynayıb. 1944-cü ildə İranın ikinci böyük şəhəri Təbrizdə anadan olan Behkəlam uşaqlığını və dil öyrənməyə çalışdığı günləri yada salır. O da bütün Azəri balaları kimi öz ana dilində yox, ölkənin rəsmi dili olan fars dilində təhsil almağa, yazıb oxumağa məcbur idi. Həmişə fars dilində çətinlik çəkib və indi də özünü bu dil ilə rahat hiss eləmir: "Mən başa düşmüşdüm ki, mənim üçün, sözümü rənglər və cizgilər vasitəsilə bəyan etmək xarici bir dildə danışmaqdan daha asandır. Elə o vaxt rəssam olmağa qərar verdim."

Almanyanın Sosial Demokratları bundan bir müddət əvvəl Berlin şəhərində ucaltmaq istədikləri bir abidə üçün 7 sənətkar arasında yarış tərtib etdilər. Onlar, 6 heykəltəraş ilə birlikdə rəssam Behkəlamı da bu yarışa çağırmışdılar. Hadisə belə idi ki, ölkənin məhkəməsi bir xaricini ölkədən çıxarılmasına hökm vermişdi və o şəxs Almanyadan qovulacağını öyrənincə dərhal özünü binanın pəncərəsindən küçəyə atıb öldürmüşdü. Dəvət olunan sənətkarların hər biri bu faciə ilə bağlı bir abidə layihəsi verməli idi. Behkəlam həm öz ana dilində tez-tez İşlədilən: "Yerniz boş…, Yerniz boş idi…" sözünü, həm də qar üstündə insandan qalan ayaq izlərini əsas tutmuşdu. Bunların hər ikisi bir əşyanın və ya şəxsin yoxluğunu çox yaxşı bəyan edən ifadələrdir. Yəni bir nəfərin öz həyatına son qoyması faciəsinə ən uyğun simvol kimi hesab oluna bilərdi. Və belə də oldu. Behkəlam, öz baxışına əsasən, bir şəxsin həyatdan köçdüyünü nümayiş etdirmək üzrə qranit üstündə iz qazılması fikrini irəli sürdü və yarışmanın qalibi oldu.

Heykəltəraşlıq Əkbər Behkəlam üçün yeni bir janrdır. Əgər o keçmişdə olduğu kimi, bu sahədə də nailiyyət əldə edərsə, Berlin şəhərinə yeni bir yaradıcılıq əsərləri bağışlaya bilər.

Rəssam haqqında ətraflı məlumatı aşağıda verilən əsərlərdən oxuya bilərsiniz.

"Akbar Behkalam: Movement and Change: Paintings and Sketches (1977-1988)"
Mazda Publishers, 1989 (112 pages)
P.O. Box 2603
Costa Mesa, CA 92626

"Akbar Behkalam: Bewegung und Veranderung, Bilder und Zeichungen, 1976-1986"
Nicolaische Verlagsbuchhandlungm: Berlin, 1987 (264 pages)